

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 4 (21.915)

*10 yanvar 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Kompleksdə xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni zamanda 11 kiçik gəminin yan alması mümkündür.

Prezident İlham Əliyev terminalın açılışını edib.

Sonra dövlətimizin başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verilib.

Prezident İlham Əliyev inşaat ərazisini gəzib, işlərin gedişi ilə yaxından tanış olub.



## Ötən il meliorasiya və irriqasiya tədbirləri diqqətdə saxlanılıb



2017-ci ildə Naxçıvan Muxtar Respublikasında yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, mütərəqqi suvarma şəbəkələrinin tikilməsi, suvarılan ərazilərin şoranlaşmasının qarşısının alınması, əhalinin içməli suya olan tələbatının etibarlı şəkildə ödənilməsi üçün tədbirlər davam etdirilmişdir. Bu dövrdə əkin sahələrinə 254 milyon kubmetr suvarma suyu verilmiş, təkrar suvarma nəzərə alınmaqla 212 min 571 hektar torpaq sahəsi suvarılmışdır. İl ərzində 243 kilometr beton və torpaq kanal, 457 kilometr ara arxları, 40 kilometr kollektor lildən təmizlənmiş, 77 kilometr yeni suvarma boru xətti, 12 kilometr yeni içməli su xətti çəkilmiş, 14 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmışdır.

Suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 407 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilmişdir. Şoranlaşmanın qarşısını almaq üçün də tədbirlər görülmüş, sahələrə suvarma normaları daxilində suvarma suyu verilmiş, qrunt sularının səviyyəsini aşağı salmaq məqsədilə açıq və qapalı drenajlarda, kollektorlarda lildən təmizləmə işləri yerinə yetirilmiş, yeni açıq və qapalı drenaj xətləri çəkilmişdir. Nəticədə, 1907 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Arpaçay selovunda, Naxçıvançay və Cəhriçay vadilərində, Qahab və Sirab selovlarında il ərzində 35 kilometr selə qarşı istiqamətləndirici bəndlər salınmışdır.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhər çirkab sutəmizləyici qurğunun tikintisi başa çatmış, ərazidə abadlıq işləri aparılmış və ozon qurğusu quraşdırılmışdır. Babək rayonunun Şıxmahmud kəndində müxtəlif diametrli borularla 34 kilometr kanalizasiya xətti, 37 kilometr içməli su xətti çəkilmişdir. Şərur şəhərində isə 59 kilometr yeni içməli su xətti 26 kilometrdən artıq kanalizasiya xətti çəkilmişdir. Ordubad rayonunda isə ümumi tutumu 20 min kubmetr olan 6 su anbarının tikintisi başa çatdırılmış, 18 subartezian quyusu qazılmış, müxtəlif diametrli borularla 73 kilometr su şəbəkəsi və 71 kilometr kanalizasiya xətti çəkilmiş, 3204 ev kanalizasiya şəbəkəsinə qoşulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada ailə dəyərləri yüksək səviyyədə təbliğ olunur

*Cəmiyyət üçün sağlamdüşüncəli, sağlaməxlaqlı insanların yetişdirilməsi ailədən başlayır. Ailə tarixən xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi mühüm rol oynamışdır. Sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitə olan ailə insanların bütün yaş dövrlərində ehtiyac duyduqları ən ali dəyərdir.*

Milli dəyərlərin, adət-ənənələrin qorunub saxlanması və gələcək nəslə ötürülməsində ailənin böyük rolu vardır. Bu, danılmaz bir faktdır ki, gənc nəsil ailədə necə böyüyürsə, gələcəkdə cəmiyyətdə də tərbiyə aldığı mühitin daşıyıcısı qismində çıxış edir. Ona görə də Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq müvafiq mövzularda yazı və rəsm müsabiqələri təşkil olunur, kütləvi informasiya vasitələrində sağlam ailənin formalaşması, ailə dəyərləri, uşaqların tərbiyəsi ilə bağlı çıxışlar edilir. Muxtar respublikada ailələrin, xüsusən də gənc ailələrin möhkəmləndirilməsi, yeniyetmə qızların təhsildən uzaqlaşaraq erkən nikaha daxil olması, qadınların hüquqi biliklərinin artırılması, yeni nəslin sağlam doğulması və böyüməsi məqsədilə ötən il ərzində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda 15 tədbir keçirilmişdir. Bu mövzularda qadınlara 4155 ədəd maarifləndirici broşür paylanılmışdır. Həyata keçirilən maarifləndirici tədbirlərin nəticəsidir ki, muxtar respublikada bu kimi mənfi halların qarşısı xeyli alınmışdır.

Aztəminatlı ailələrin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə ötən il komitə tərəfindən Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanlarının nümayəndələri ilə birlikdə aztəminatlı ailələrə baş çəkilmiş, onların problemlərinin həlli istiqamətində müvafiq işlər görülmüş, ailə üzvləri tibbi müayinədən keçirilmiş, zəruri ehtiyacları ödənilmişdir.

Ailələrə və uşaqlara göstərilən qayğının bariz nümunələrindən biri də, ənənəvi olaraq, 2017-ci ildə də aztəminatlı ailələrdən olan 87 nəfər uşağa məktəbli forması, qış geyimi və dərs ləvazimatlarının təqdim olunması idi.

Muxtar respublikada ailələrin möhkəmliyi həmişə təqdirəlayiq olmuşdur. Bu, əsasən, milli mentalitetimizdən irəli gəlir. Əgər bu gün ölkəmizdə yüzlərlə, minlərlə insan qurduqları ailələrin brilyant, qızıl, gümüş yubileylərini keçirirlərsə, bu, o deməkdir ki, ailə modeli qorunur və nəsildən-nəslə yaşadılır. Hər il olduğu kimi, 2017-ci ildə də muxtar respublikamızda uzunömürlü ailələrin iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə 10 uzunömürlü ailənin yubileyləri qeyd olunmuş, hədiyyələr verilmişdir. Bundan əlavə, orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri, ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri və istedadlı gənclər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda IV muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqələri keçirilmişdir. Müsabiqənin qalibləri diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

Gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, bunun vasitəsilə ailə dəyərlərimizə bağlı olan ailələrin adət-ənənələrini ictimaiyyətə, yeni nəslə təqdim etmək, yeniyetmə və gənclərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqünü inkişaf etdirmək məqsədilə yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında "Ailə dəyərlərimiz film və fotolarda" II yaradıcılıq müsabiqəsi keçirilmişdir.

Muxtar respublikamızda milli dəyərlərimizin əsas hissəsi olan ailə dəyərlərinin qorunub yaşadılması, ailələrin bütövlüyünün möhkəmləndirilməsi istiqamətində bundan sonra da ardıcıl tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Quruculuq işləri ilə hər gün daha da müasirləşən, gözəlləşən Naxçıvan şəhərində insanların istədikləri yerlərə rahat gediş-gəlişi daim diqqətdə saxlanılan məsələlərdəndir.*

## Şəhərimizin daha bir küçəsi abadlaşdırılır



Şəhərimizin Əziz Əliyev küçəsində həyata keçirilən abadlıq işlərində də elə əsas məqsəd budur. Əhalinin daha sıx hərəkətdə olduğu "Cahan" Ticarət Mərkəzi və "Elit-57" Alış-Veriş Mərkəzinə yaxın küçənin genişləndirilməsinə və abadlaşmasına böyük ehtiyac var idi. Yanvar ayı olmasına baxmayaraq, havaların şaxtasız keçməsi tikinti-abadlıq işlərinin davam etdirilməsinə heç bir problem yaratmır. Elə bu səbəbdən bir neçə vaxtdır ki, küçədə Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən geniş abadlıq işləri görülür. İş icraçısı İbadulla Bağırovdan aldığımız məlumata görə, küçənin 320 metr ərazisində abadlıq işləri aparılır. Küçə 5 metr genişləndirilib, yeni divarlar çəkilib, travertin daşla üzlənib. Səkilərdəki sal daşlar dekorativ daşlarla əvəz olunub. Hazırda küçənin digər hissəsində torpaq işləri görülür. Belə ki, ərazi asfalt salınması üçün hamarlaşdırılır, artıq torpaq maşınlarla kənarlaşdırılır. Maşınların dayanması üçün nəzərdə tutulan bu ərazidə ikitərəfli bordürlər düzülüb, səkilər düzəldilir.

Abadlıq işlərinə idarənin 60 nəfər işçisi cəlb olunub. İşlərin yaxın zamanda yekunlaşdırılması nəzərdə tutulub.

## Yaşayış binasında əsaslı təmir işləri aparılır



*Ordubad şəhərindəki 24 mənzilli, 5 mərtəbəli yaşayış binasında əsaslı təmir işləri aparılır.*

Ötən ilin sonlarından bu işlərə başlanılması həmin binada yaşayanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi daşıyır. Yeni quruculuq tədbirini "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər. Qısa müddət ərzində binanın fasadına yeni suvaq örtük çəkilib, pəncərələri dəyişdirilərək plastik pəncərələrlə əvəz olunub, çardağı yenidən qurularaq üzərinə dəmir örtük vurulub.

Hazırda binanın zirzəmi hissəsində təmir işləri aparılır, yeni istilik sistemi qurulur. İnşaatçılar öhdəsinə götürdükləri təmir işlərini vaxtında və keyfiyyətlə başa vurmaq üçün səylərini əsirgəmirlər. Bunun üçün onlara hərtərəfli şərait yaradılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda miqrasiya proseslərinin idarə olunmasına nəzarət gücləndirilib

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib.

Dekabr ayı ərzində xidmət tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 17 əcnəbi aşkarlanıb. Onlardan 14-ü barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 3-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 569 müraciət daxil olub. Bu müraciətlərdən 75-i əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlığın mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Dekabr ayı olduğu yer üzrə qeydiyyatla bağlı 494 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 205-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

Jurnalistin qeydləri

## Sağlam həyat tərzi sağlam cəmiyyətin formalaşmasında mühüm amildir

***70 illik sovet hegemonluğunun acı nəticələrindən biri də o idi ki, kəndlinin iş yeri olan torpaq əlindən alınıb sovxoz, kolxozlara verilmişdi. Bu, məsələnin bir tərəfi. Digər tərəfi isə bəzi insanlarda sanki bir tənbəllik hissinin formalaşması idi. Beləlri torpaqda işləməyi çətin bilib, guya ki, özlərinə asan dolanışıq yolu tapanlar idilər. Hərəsi bir "budka" adlandırılan mağaza açıb, vaxtı ötmüş ərzaq məhsullarını satmaqla camaatı aldadırdı.***

Yayın isti günlərində 30-40 dərəcə temperaturda həmin budkaların qarşısından asılan ət məhsulları, günün altında qalan mineral və sərinləşdirici sular, uşaqların sevə-sevə yedikləri kartof və qarğıdalıdan hazırlanmış ərzaq məhsulları bu cür ticarət obyektlərindən istifadə edənlərə hansı faydanı verə bilərdi? Hələ səhərin və axşamçağının sərinliklərində həmin mağazalara və onun ətrafına toplaşan insanları demirəm. Bir-birinə calanan siqaretin tüstüsündən nə bayırda göz-gözü görürdü, nə də içəridə. Həmin tüstü aldığımız məhsulların üstünə hopurdu. Hələ bu budkalardakı natəmizliyi, antisanitariyanı, vergidənyayınma hallarını demirik.

Rayon mərkəzlərində, qəsəbə və kəndlərimizdə də torpaq əkməkdən, heyvandarlıqla məşğul olmaqdan boyun qaçıraraq həyətindəki tövləni çayxanaya çevirən və digər yerlərdə icazəsiz, lüzumsuz bir "obyekt" tikib, çayxana kimi istifadə edənlər də var idi. Heç birində su və kanalizasiya sistemi olmayan, natəmiz binalarda fəaliyyət göstərən çayxanalar, antisanitariya yuvaları xəstəlik ocaqları idi. Ən pis cəhət isə onda idi ki, belə yerlər insanlarda aludəçilik yaradıb onları ailəsindən-uşağından, iş-gücündən ayrı salmışdı. Həmin çayxanaların sahibləri kimi tənbəl, səriştəsiz adamların gün ərzində "istirahət" yerinə çevrilən belə çayxanalarda da siqaret iyindən göz-gözü görmürdü. O illərdə yazı hazırlamaq məqsədilə Şahbuz rayonunun Kolanı kəndində olarkən sürücümüzdən xahiş etmişdim ki, burada fəaliyyət göstərən çayxanalardan birinə baş çəksin. O, orada dama oynayan 42 nəfəri saymış, çayxanaya girəndən bir neçə dəqiqə sonra gözü siqaret tüstüsündən ətrafı ancaq görmüş və buradakı kənd sakinlərinin üzünü güclə seçə bilmişdi.

Qeyd edim ki, bu cür çayxanalarda gün keçirənlər çaydan içib, siqarət tüstülətdikcə, sanki fərəhlənir, domino daşlarını, nərdi taxtaya elə çırpır, elə nalayiq sözlər söyləyirdilər ki, səsi qəsəbənin, kəndin ayağından da, başından da eşidilirdi. Səhər açılandan toran düşənədək çayxanalarda pensiyasını, aylıq ailə büdcəsini burda qoyanlar axşam evə nə üzlə qayıdır, onlardan çörək, yemək, paltar istəyən ailə üzvlərinə nə vəd edirdilər, bu barədə düşünmək belə, çətindir.

Bu, bir faktdır ki, işsiz, bekar adamlar uçurumun biraddımlığında dayanan və təhlükə qarşısında olanlardır. Belələri yalan da danışar, riyakarlıq da edər, kobudluq da. Çünki gündəlik həyat tərzi onları istənilən pis işə sövq edə bilər. Şahbuz rayonunun Kükü kəndindən bir qadının söylədiklərini xatırlayıram: "Bircə bu çayxanaları söküb, dağıdalar. Onda, bəlkə, bu kişinin üzünü evdə görə bilək. İnanın, kişi evə gələndə üstündən-başından gələn siqaret iyindən evdə nəfəs almaq olmur. Məcbur qalıb pencəyini saatlarla çöldə asıram".

Bəli, vaxtilə kəndlərimizdə belələri çox idi. Evə getməmək bir yana qalsın, hələ, üstəlik, evinə çox gec və sərxoş gəlib, davadalaş salanlar da az deyildi. Ev işini də, çöl işini də, uşaqları da qadının üstünə töküb, gününü tamamilə çayxanalarda keçirənlər, unu nisyə alıb, evin son qəpiyini çayxana xərclərinə ayıranlar da var idi.

Yadımdadır, o dövrdə kim harda gəldi siqaret çəkirdi. İşimlə əlaqədar idarə, müəssisə və təşkilatlarda tez-tez olurdum. Siqaret çəkən müdirlərin stollarının üstündə hər şeydən vacib bildikləri külqabı olardı. Onlar siqareti elə iş otaqlarındaca heç nədən çəkinmədən çəkirdilər, həm də təklikdə deyil, işçilərinin, qonaqların da yanında. Xəstəxanada həkimin xəstəni müayinə edərkən müəllimin müəllimlər otağında siqaret çəkdiyinin də şahidi olmuşuq. Marşrutlarda sürücülərin içərini dumana bürüdüyünü də görmüşük.

...İllər ötdü. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda torpaq islahatlarına başlanıldı. İllərlə sərvəti başqaları tərəfindən mənimsənilən bərəkətli torpaqlarımız son qarışına kimi bölünüb kəndlilərə paylandı. Ona görə paylandı ki, kənddə yaşayan insanların sosial-iqtisadi vəziyyəti yaxşılaşsın, onlar torpaq sahibi olmaqdan qürur duysunlar, torpağa bağlanmaqla ailə büdcələrinə gəlir gətirib, firavan dolansınlar.

Torpaq islahatları ilə birlikdə həyata keçirilən quruculuq işlərinə ilk olaraq ucqarlardan başlandı. Bir gecənin içərisində "həyata vəsiqə alan" addımbaşı çayxana, mağaza binaları söküldü, insanların içinə dolmuş tüstünün yerinə təmiz hava hakim kəsildi. Çünki onlara bu maraqsız vərdişlərinə son qoyub torpaqlarını əkib-becərmək təklif olundu. Kreditlər verildi, torpağı becərmək üçün münbit şərait yaradıldı. Bu işlərə asanlıqla nail olunmadı. İnsanları çayxanalardan, tənbəl həyat tərzindən ayırıb torpağa bağlamaq üçün illərlə maarifləndirmə işləri aparıldı. Rayon, qəsəbə və kəndlərimizin elektrik enerjisi, təbii qaz və su ilə təchizatı, həyata keçirilən quruculuq işləri insanların təfəkküründə yeni bir dövrün başlandığını formalaşdırdı. Ətrafdakı hərtərəfli şərait – məktəb, xəstəxana binaları, kənd və xidmət mərkəzləri, abad yollar, körpülər insanlarda öz yurd yerlərində iş yeri axtarıb tapmaq meylini yaratdı ki, bu da torpaq oldu. Özünü torpaqda tapan insanlar ailə büdcələrinin burada olduğunu dərk etdikcə bu qiymətli sərvətə daha qırılmaz tellərlə bağlandılar. İndi onlarla fermer, torpaq mülkiyyətçisi, fərdi təsərrüfat sahibi var ki, onlar vaxtilə yuxarıda qeyd etdiyimiz çayxanalarda ən "fəal" siqaret çəkənlər idilər. Bu gün həmin torpaq mülkiyyətçiləri kənd təsərrüfatının müxtəlif gəlirli sahələri, o cümlədən böyük potensiala malik ixracyönümlü sahələrdən biri olan tütünçülüklə də məşğul olurlar. Onlar güzəştli kredit hesabına maşın, texnika sahibi, gözəl, bağbağatlı evlərdə yaşayan, bazarlarımıza çeşidli məhsullar çıxaran, hər kəsin yanında alnıaçıq, üzüağ insanlardır.

Muxtar respublikamızda quruculuq işləri davam etdikcə, rayon, qəsəbə, kəndlərimiz abadlaşdıqca insanların da məsuliyyəti artmağa başladı. Maarifləndirmə işləri, aparılan reydlər insanlarda dünən ilə bu gün arasında fərqi dərketməni də formalaşdırdı. İctimai yerlərdə siqaret çəkilməsinin qarşısı alınmağa başladı. Siqaret çəkən müdirlər istəsələr də, istəməsələr də, nəfslərinə hakim kəsilməli oldular, müasir, yaraşıqlı məktəb, xəstəxana otaqlarında siqaret çəkən müəllim və həkim hərəkətlərinə nəzarət etmək məcburiyyətində qaldı. Muxtar respublikamızda formalaşan mədəni mühit insanların fəallığı ilə nəticələndi. Həm insanların, həm də aid təşkilatların birgə işi sayəsində ictimai nəqliyyatda nə sürücülər, nə də sərnişinlər siqaret yandırmağa cürət edə bildilər. Gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılaraq elmə, təhsilə, idmana cəlb olunması istiqamətində məqsədyönlü işlər həyata keçirildi. Beləliklə, Naxçıvanda illər əvvəl başlanılan bu proses uzun zaman çəksə də, öz bəhrəsini verdi.

2017-ci il dekabrın 29-da dövlət başçısı cənab İlham Əliyev Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması məqsədilə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunu fərmanla təsdiqlədi. Bu xəbər siqaret çəkməyən vətəndaşların hamısının ürəyincə oldu, çünki siqaret çəkəndən çox onun tüstüsünü qəbul edən insan daha çox zərər çəkir. Bu xəbəri eşidəndə, ilk növbədə, siqaret çəkənlərlə bağlı hələ illər öncədən Naxçıvanda başlanılan proses gözlərim önündə canlandı. İndi hər bir naxçıvanlı qətiyyətlə deyə bilər ki, bu qanunun icrası muxtar respublikamızda daha asan olacaq. Çünki biz naxçıvanlıların hər biri sağlamlığımız naminə təməli hələ illər əvvəl qoyulmuş prosesin iştirakçılarıyıq və bu təqdirəlayiq işin davamlı olmasına hər an nəzarət edirik.

✍ **Mətanət MƏMMƏDOVA**

***Müasir cəmiyyətin iqtisadi və mədəni inkişafının əsas faktorları arasında olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi diqqət mərkəzindədir. Sahibkarlığın inkişaf etdirilməsi, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində həyata keçirilən dövlət tənzimlənməsi bu sahədə hüquqi bazanın yaradılması və beynəlxalq təcrübəyə uyğun cəlbedici investisiya mühitinin formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.***

## Sahibkarlığa dövlət dəstəyi artıb



İqtisadiyyatda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi mühüm şərtlərdəndir. Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin təşviq olunması, məhsulların ixrac imkanlarının genişləndirilməsi və yeni layihələrin reallaşdırılması məqsədilə kredit dəstəyinin verilməsi bu sahənin uğuru üçün vacib məsələlər kimi daim diqqətdə saxlanılır. Bu baxımdan muxtar respublikamızda iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün sahibkarlığa göstərilən dövlət dəstəyi həmişə öz bəhrəsini verib.

Hazırda muxtar respublikamızda 368 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Naxçıvanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes mühitinin yaradılması sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın ümumi istehsal potensialının güclənməsinə səbəb olub. Həyata keçirilən bu tədbirlər, o cümlədən yeni emal-istehsal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafına əhəmiyyətli təsir göstərib. Nəticədə, ötən il muxtar respublikada 880 milyon manata yaxın həcmdə sənaye məhsulu istehsal olunub ki, bu da regionda yaradılan 2 milyard 357 milyon manatdan çox həcmdə olan ümumi daxili məhsulda ilk yeri tutur.

Sənayenin inkişafı müasir dövrün tələblərindən biri olan iqtisadiyyatın şaxələndirilməsinin əsas yollarındandır. Bu istiqamətdə görülən tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikamızda yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül, yeyinti və kənd təsərrüfatı məhsullarının emalı üzrə xeyli sayda istehsal sahələri yaradılıb, sahibkarlara konkret maliyyə dəstəyi göstərilib. Sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi, əsasən, Naxçıvan Muxtar Respublikasının daxili imkanlarına və sosial-iqtisadi inkişafın prioritetlərinə görə diqqəti cəlb edir. Belə ki, muxtar respublika iqtisadiyyatına investisiya qoyuluşunu sürətləndirmək, ənənəvi sahələrin işini canlandırmaq üçün görülən işlər çox qısa zaman içində öz bəhrəsini göstərib. Artıq Naxçıvan Muxtar Respublikası özünün investisiya cazibədarlığı ilə ölkəmizin digər regionları arasında birinci yeri tutur ki, bu da sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, onlara real kredit dəstəyi göstərilməsi nəticəsində mümkün olub. Belə ki, hazırda muxtar respublikada kreditlər üzrə tətbiq edilən faiz dərəcələrinin ən aşağı səviyyədə olması muxtar respublikanın kredit bazarında canlanma yaradıb. Rəqəmlərə diqqət etsək, görərik ki, ötən il Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlara 8 milyon 664 min manatdan çox kreditlər verilib ki, nəticədə, bu dövrdə 60 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb və daha 36 hüquqi və 2015 fiziki şəxs dövlət qeydiyyatına alınıb.

Sahibkarlıq iqtisadiyyatın lokomotivi hesab edilir. Şübhəsiz, cəmiyyətin inkişafı hər sahədə olduğu kimi, sahibkarlıq fəaliyyətinə qarşı da yeni tələblər qoyur. İnsanların yüksələn həyat səviyyəsini təmin edə bilmək üçün sahibkarlarımız da yaradılan şəraitdən maksimum dərəcədə istifadə etməyə, öz fəaliyyətlərini genişləndirib minlərlə yeni iş yerləri yaratmağa çalışırlar. Bu nailiyyətlərin əldə olunmasında isə onların maraqlarının qorunmasının, hərtərəfli dəstək göstərilməsinin də əhəmiyyəti böyükdür. Bu gün muxtar respublikamızın bütün sahibkarları məhz bu qayğı ilə əhatə olunublar.

✍ **Əli CABBAROV**

## 2017-ci ildə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə 41 mindən çox sərnişin daşınıb

***Muxtar respublikada avtomobil nəqliyyatı infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılması diqqət mərkəzindədir.***

2017-ci ildə də bu sahədə ardıcıl tədbirlər görülmüş, sərnişindaşımalarını yerinə yetirən sürücülərin iştirakı ilə 24 seminar-müşavirə keçirilmişdir. Avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslara Naxtel-4G GPS monitorinq izləmə sistemi quraşdırılmışdır. Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobuslara və taksilərə isə GPS-lərin quraşdırılması işi davam etdirilir.

2017-ci ildə beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət gücləndirilmiş, Türkiyə Respublikasının "Metro" və "İğdırlı" turizm şirkətləri ilə bağlanmış müqaviləyə əsasən Türkiyə Respublikasının İqdır şəhərinə avtobus marşrutu açılmışdır. Bu dövrdə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 20 min 685, Bakıdan Naxçıvana isə 20 min 964 sərnişin daşınmışdır. Muxtar respublika daxilində də sərnişindaşıma xidmətinin səviyyəsi yüksəldilmiş, 135 marşrut xətti üzrə rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası təmin edilmiş, Naxçıvan Dövlət Universitetinin Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi və Naxçıvan Dövlət Texniki Kollecinin Yol hərəkətinin təşkili ixtisaslarında təhsil alan tələbələrin nazirlik sistemində istehsalat təcrübələri təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Təbii qaz təchizatı fasiləsiz həyata keçirilib



"Naxçıvanqaz" İstehsalat Birliyi fəaliyyətini daim gücləndirir, təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. 2017-ci ildə istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi sahəsində qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir. Bu dövrdə yaşayış məntəqələrindən daxil olan müraciətlərə əsasən 893 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılmış, yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol-qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar 167 min 897 paqonometr polietilen və dəmir borulardan istifadə olunmuşdur.

2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı tədbirlər görülmüş, istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanılmışdır. Qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülmüş, qaz şəbəkələrində sızmalar aşkarlanaraq aradan qaldırılmışdır. Təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilmiş, qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsi artırılmışdır. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilmiş, 2923 qaz sayğacı quraşdırılmışdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

*Tarixən Azərbaycanın bütün bölgələrində dövrünə görə əzəmətli məscidlər olub və onlar bu günədək qorunub saxlanıb. Bu baxımdan Bakıdakı Bibiheybət və Təzəpir, həmçinin Naxçıvan və Ordubad şəhərlərindəki Came məscidlərinin, muxtar respublikadakı İmamzadə komplekslərinin adlarını çəkə bilərik. Ölkəmizdə mövcud olan belə abidələr xalqımızın dini, mənəvi dünyagörüşünü özündə ehtiva edir.*

## Naxçıvanın türk-islam mədəniyyəti abidələri

# Dini ibadətgahlarımız



Şərur şəhər məscidi

Bu gün muxtar respublikamızda dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Tarixi abidələr, dini ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir. Məscidlər isə ibadət yeri olmaqla yanaşı, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır.

Belə məkanlardan biri də Culfa rayonunun Saltaq kəndində yerləşən Saltaq kənd məscididir. Tarixi-memarlıq quruluşu ilə gözoxşayan bu məscid 1410-cu ildə tikilib. Minarəsinin hündürlüyü 12 metrdir. Günbəzi isə səkkizpəncərəlidir və bu pəncərələr məscidin işıqlandırmasını təmin edir. Günbəzin üzərinə ay, minarəyə isə səkkizguşəli ulduz təsviri həkk olunub.

Üç giriş qapısından ibarət olan məscidin həyətində qədim bir tut ağacı və su quyusu var. Həyətinə açılan qapısının divarlarına dualar yazılıb. Əvvəllər möhrədən tikilən məscid 1991-ci ildə kənd camaatının köməyi ilə bərpa edilib və həm tikilmə, həm də bərpaolunma tarixi minarənin üzərinə həkk olunub. Girişdəki sütunların üzərinə günbəz şəkli verilib. Tikilinin divarlarında Möminə xatın məqbərəsində istifadə olunan naxışlar da göz oxşayır, daxilində qədim dini kitabların olduğu yer isə vaxtilə kitabxana kimi istifadə olunub. İki mərtəbədən ibarət olan ibadətgahın ikinci mərtəbəsi eyvan şəklindədir və qadınlar üçün nəzərdə tutulub. Məscidin yerdən tavanadək hündürlüyü 5 metrdir və tavan 7 sütun üzərində dayanıb. Ümumi sahəsi 600 kvadratmetr olan məsciddə eyni vaxtda 400 nəfər ibadət edə bilər.

Culfa rayonunun Bənəniyar kəndindəki məscidin tarixi isə XIX əsrin əvvəllərinə aiddir. İki mərtəbədən ibarət olan bu məsciddə 1987-ci ildə təmir işləri aparılıb. Tikilinin yerdən tavana qədər hündürlüyü 9, yerdən günbəzədək hündürlüyü isə 15 metrdir. Birinci mərtəbə kişilər, ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. Bu ibadət ocağı kəndin ən uca bir nöqtəsində yerləşən öz memarlıq quruluşu ilə gözoxşayan ibadət yeridir. Bənəniyar kənd məscidi tarixi abidə kimi də mühüm əhəmiyyətə malikdir.



Nehrəm kənd məscidi



Vənənd kənd Came məscidi



Burçunlu məscidi

Naxçıvanın səfalı guşələrindən olan Ordubad bir çox xüsusiyyətləri ilə yanaşı, tarixi abidələri ilə də hər zaman diqqət mərkəzində olub. Belə abidələr sırasında məscidlər də xüsusi yer tutur. Buradakı məscidlər, əsasən, öz qədimliyi ilə seçilir. Bu ibadət yerlərinin əksəriyyəti tarixi əhəmiyyətə malikdir. Elə rayonun Vənənd kəndindəki Came məscidi də tarixiliyi ilə bura gələn tədqiqatçıların və hər bir qonağın marağına səbəb olan bir dini ibadətgahdır.

"Naxçıvan abidələri ensiklopediyası"nda qeyd olunur ki, Vənəndin mərkəzi meydanında yerləşən və memarlıq xüsusiyyətləri ilə seçilən Came məscidi 1324-1325-ci illərdə tikilib. Düzbucaqlı formada olan məscidin sahəsi, təqribən, 375 kvadratmetr, hündürlüyü isə 7 metrdir. Məscid bir neçə dəfə bərpa olunub. Şimal tərəfdəki tağın üzərində fars və ərəb dillərində yazılmış kitabədə XVIII əsrin birinci yarısında Vənəndin, eləcə də Naxçıvanın iqtisadi həyatına dair məlumat verilir. Kitabəni ilk dəfə rus şərqşünası, tarixçi, etnoqraf N.V.Xanıkov fransız dilinə tərcümə edib. İkimərtəbəli məscid birminarəlidir. Minarəyə məscidin içərisindən çıxış var. Birinci mərtəbə kişilər, ikinci mərtəbə isə qadınların ibadəti üçün nəzərdə tutulub. Burada eyni vaxtda min nəfər ibadət edə bilər. Üç böyük sütun üzərində dayanan məscidi bir böyük və 10 ədəd yardımçı çılçıraq işıqlandırır. Qapıları yerli sənətkarlar tərəfindən şəbəkə üsulu ilə işlənmiş məscidin içərisində quraşdırılmış rəflərdə dini kitablar yer alır.

Məscidin həyətindəki başı göylərə çatan üç qocaman çinar ağacı da bu qədim məscidin tarixinə əsrlərdir ki, şahidlik edir. Ümumiyyətlə, Ordubaddakı məscidlərin həyətində qədimdən çeşmə və çinar ağaclarının olmasına həmişə xüsusi əhəmiyyət verilib.

Came məscidindən əlavə, Vənənd kəndində 3 məhəllə məscidi də mövcuddur ki, bunlar da, əsasən, minarəsiz məscidlərdir və yerləşdiyi məhəllənin adı ilə adlanır. Adətən, belə dini ibadət yerlərində minarəni məscidin damında yerləşən səki əvəz edir. Məsələn,Vənəndin məhəllə məscidlərindən olan Burçunlu məscidi kəndin Burçunlu məhəlləsində yerləşdiyinə görə belə adlandırılıb və konstruktiv quruluşuna görə tarixi XVII əsrə aid edilir.

Ötən əsrdə inşa olunan Heydər məscidi Şərur rayonunun Aralıq kəndində yerləşən memarlıq abidəsidir. 420 kvadratmetr ərazidə yerləşən məscidin binası Şərq memarlıq elementlərini özündə əks etdirən müasir üslubda tikilib. Daxildən və xaricdən düzbucaqlı formada olan məscidin günbəzində göy kaşılarla Heydər məscidi sözləri, əsas giriş qapısının üzərində isə müqəddəs "Qurani-Kərim"dən ayə yazılmış kitabə vurulub. Məscidin divarları ona monumental bir görkəm verən qırmızı kərpic rəngi ilə boyanıb, qapı və pəncərələrin kənarları və eləcə də binanın küncləri ağ rənglə rənglənib, həyəti dini simvollar, nəbati və həndəsi naxışlarla bəzədilib, dəmir məhəccərlərlə əhatə edilib.

İslam dininin əsas müqəddəs yeri olan məscidlər bütün müsəlmanların ibadət yeri, onların mənəvi vəhdət məkanıdır. Bu müqəddəs yerlərdə insanlar mənəvi saflıq uğrunda birləşirlər. Bu baxımdan şəhər, rayon və kəndlərimizdə mövcud olan məscidlərdən istifadə edən sakinlər də öz mənəvi aləmlərini zənginləşdirirlər.

Qeyd edək ki, müqəddəs İslam dinində hər zaman Allaha, onun müqəddəs kitablarına, pir və ocaqlara, məscidlərə tükənməz sevgi olub. Bu gün də o sevgi, hörmət, etiqad insanların mənəvi dünyasından, dini dəyərlərindən xəbər verir. Pirlər, türbələr, günbəzlər, məscidlər ibadət yerinə, ziyarət ünvanına çevriliblər. Bu gün bu yerlər dövlət qayğısından bəhrələnib. Muxtar respublikamızın elə bir bölgəsi yoxdur ki, orada belə ziyarətgahlar, məscidlər olmasın.

Təəssüf ki, bir vaxtlar məscidlərin, xalqın inanc yerləri kimi qəbul etdiyi ocaqların bağlanması, onların anbarlara çevrilməsi halları da olub. Əlbəttə ki, məscidlərə, ocaqlara qarşı bu cür xoşagəlməz münasibəti ürəyində Allah sevgisi olan hər bir azərbaycanlı böyük kədər hissilə qarşılayırdı. Amma bu manеələr Azərbaycan xalqının iradəsini zəiflədə bilmədi, xalqımız öz dinindən dönmədi, əksinə, ona daha dərin bağlarla bağlandı. Bu gün isə dini dəyərlərimiz müstəqil Azərbaycanda dövlət səviyyəsində qorunur, insanların inanc azadlığı tam təmin olunur.

Bu gün dövlətimiz dinimizə, İslamı maarifləndirmə işinə böyük dəstək verir. Dövlətin din ocaqlarına göstərdiyi qayğının bəhrəsini bütün xalqımız yaxından hiss edir. Dövlət səviyyəsində həyata keçirilən bu işlər nəticəsində onlarla məscid bərpa edilərək ümummilli ziyarət yerinə çevrilib.

Son illər Babək rayonunun Çeşməbasar kəndindəki Heydər məscidinin, Nehrəm, Əbrəqunus və başqa kənd məscidlərinin milli memarlıq üslubunda yenidən qurulması və hazırda Naxçıvan şəhərində eyni vaxtda 2500 nəfərin ibadət edə biləcəyi, Cənubi Qafqazın ən böyük məscidlərindən olacaq bir ibadət yerinin tikilməsi də bunu sübut edir.

Qədimliyi, memarlıq üslubu ilə seçilən bu ziyarət yerlərimiz, ibadətgahlarımız Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı keçiriləcək möhtəşəm tədbirlər zamanı gələn xarici qonaqlarda da böyük maraq doğuracaq. Çünki İslam dini xalqımızın milli və mənəvi sərvəti, məscidlər isə İslamı təmsil edən müqəddəs yerlərdir.

**Türkanə ƏMOYEVA**
**Naxçıvan Dövlət Radiosunun əməkdaşı**

# Kollegiya iclası keçirilib



Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyində 2017-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, hesabat dövründə əlamətdar və tarixi günlərlə bağlı, görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi diqqət mərkəzində saxlanılıb, 30 tamaşa hazırlanıb və ümumilikdə, 241 tədbir, 89 konsert, 25 açıq dərs, sərgilər təşkil edilib.

Vurğulanıb ki, 2017-ci ildə muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi diqqət mərkəzində saxlanılıb, ötən il ərzində nazirliyin sistemində olan muzeylərə, ümumilikdə, 1340 ədəd yeni eksponat daxil olub. 2017-ci ildə muzeyləri 335 min 322 nəfəri yerli, 110 min 425-i əcnəbi olmaqla, ümumilikdə, 445 min 747 tamaşaçı ziyarət edib.

Ötən il kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılıb, keçirilən tədbirlərin səmərəliliyinə nəzarət artırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli "Oxunmasına zəruri olan kitablar haqqında" Sərəncamının icrası istiqamətində iş aparılıb, nazirliyin sisteminə daxil olan kitabxanalarda müvafiq kitab guşələri yaradılıb, kitab müzakirələri və oxucu konfransları təşkil edilib. Sərəncamla bağlı, ümumilikdə, 31 kitabın müzakirəsi olub. Kitabxanalarda görkəmli şəxsiyyətlərlə bağlı 152 yubiley tədbiri keçirilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə kitabxanalarda keçirilən mədəni-kütləvi tədbirlərin sayı 552, sərgilərin sayı 411 olub. Bu mədəniyyət müəssisələrinə 301 adda 13 min 224 nüsxə çap məhsulu verilib.

Nazir bildirib ki, hesabat dövründə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında üç yeni tamaşa hazırlanıb. Bu dövrdə xalq teatrları tərəfindən də bir sıra tamaşalar səhnələşdirilib. Ötən ilin iyun ayında xalq teatrlarının festivalı keçirilib.

Görkəmli bəstəkar Tofiq Quliyevin 100 illik yubileyi ilə əlaqədar Naxçıvan Dövlət Filarmoniyasında keçirilən yaradıcılıq gecəsində filarmoniyanın kamera orkestri bəstəkarın əsərlərindən ibarət konsert proqramını təqdim edib. Filarmoniyanın kollektivləri il ərzində müxtəlif dövlət tədbirlərində, festivallarda və yay konsertlərində iştirak edib. Ötən il iyun-sentyabr aylarında əhalinin yay istirahətinin təşkili istiqamətində işlər də ənənəvi olaraq davam etdirilib, Naxçıvan şəhərinin park və meydanlarında 10 konsert təşkil edilib.

Nazirliyin sisteminə daxil olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə 2017-2018-ci tədris ilində müxtəlif ixtisaslar üzrə 990 şagird qəbul olunub. Onlardan 15 nəfəri sağlamlıq imkanı məhdud uşaqdır.

Qeyd olunub ki, ötən il turizmin inkişafı ilə bağlı bir sıra işlər görülüb, muxtar respublikanın turizm potensialının təbliği davam etdirilib. 2017-ci ildə muxtar respublikaya 380 mindən çox turist gəlib. 6-8 aprel tarixlərdə Bakı şəhərində keçirilən XVI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası stendlə təmsil olunub, stenddə muxtar respublikanın turizm imkanları, həmçinin 6 yerləşdirmə obyekti haqqında materiallar sərgilənib, reklam-informasiya materialları və muxtar respublika ərazisində müxtəlif istiqamətli turist marşrutlarını özündə əks etdirən bukletlər sərgi iştirakçılarına paylanılıb. Sərgidə iştirak edən daxili turizmlə məşğul olan turizm firmaları ilə görüşlər keçirilib.

Nazir deyib ki, muxtar respublikada geniş vüsət almış abadlıq və quruculuq tədbirləri mədəniyyət və incəsənət müəssisələrindən, turizm obyektlərindən də yan keçməyib. Hesabat dövründə Ordubad rayonunun Üstüpü, Babək rayonunun Gərməçataq, Payız, Şərur rayonunun Çəmənli, Arpaçay, Ələkli, Qarahəsənli, Naxçıvan şəhərinin Tumbul, Qaraxanbəyli kəndlərində inşa olunan kənd mərkəzlərində mədəniyyət müəssisələri də yerlə, lazımi inventar və avadanlıqlarla təmin edilib. Şərur rayonunun Ələkli kəndində Uşaq musiqi məktəbinin yeni binası istifadəyə verilib. Naxçıvan şəhərində isə 2 saylı Təqaüdçülər Klubu yenidən qurularaq qapılarını təqaüdçülərin üzünə açıb. Sərhəd rayonumuz olan Sədərəkdə müasir üslubda Mədəniyyət Evi istifadəyə verilib. Hazırda muxtar respublikamızda bir neçə tarixi abidədə bərpa işləri aparılır.

Natəvan Qədimova Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı olduğunu vurğulayıb, qarşıda duran vəzifələrdən danışıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

El sənəti

# Maddi-mədəniyyət nümunələrimizdə yaşayan *nəqqaşlıq sənəti*

***Naxçıvanda ta qədim dövrdən bəri müxtəlif sənət növləri yaranıb. Onlardan bəziləri bu gün tanınmış ustalar, sənət adamları tərəfindən yaşadılsa da, bir neçəsi zaman keçdikcə unudulmaq təhlükəsi ilə üz-üzə qalıb. Onlardan biri də nəqqaşlıqdır. Dekorativ-tətbiqi sənətin qədim növlərindən sayılan bu sənətin adı ərəb mənşəli sözdən yaranıb. Belə ki, ərəb dilindəki "nəqş", yəni "naxış" sözündən əmələ gələn nəqqaşlıq müxtəlif metalların, ağac məmulatlarının üzərinə şəklin, fiqurun, yazının həkk olunmasıdır.***



Nəqqaşlıq sənətinin yaranma tarixinə nəzər salsaq, görərik ki, bu sənət növü ən qədim ölkələrdə təşəkkül tapıb, sonradan bütün dünyaya yayılıb. Orta əsrlərdə isə Şərq aləmi bu sənətin vətəni sayılıb, nəqqaşlığın müxtəlif növləri inkişaf etdirilib.

Azərbaycanda, eləcə də qədim Naxçıvanda nəqqaşlıq bir çox sahələrdə tətbiq edilib. Xüsusilə xalçaçılıq sənətində nəqqaşlığın ruhu duyulur. Şah İsmayıl Xətainin taxtı və Moskvadakı Silah Palatasında saxlanılan bədii işləməli qalxan tariximizdə nəqqaşlığın ən gözəl nümunələri hesab olunur. Atabəylər dövründə yüksək sənətkarlıqla inşa edilən, bu gün də öz möhtəşəmliyini qoruyan Naxçıvan şəhərindəki Möminə xatın türbəsi nəqqaşlıq sənətinin zirvəsi sayıla bilər.

Azərbaycan ustaları bu sənətdə böyük uğur qazanıb, ölkəmizlə yanaşı, xarici ölkələrdə də möhtəşəm sənət əsərləri yaradıblar. Tarixdən də hamımıza məlumdur ki, vaxtilə Osmanlı Türkiyəsində 300-ə yaxın azərbaycanlı sənətkar yaşayıb, fəaliyyət göstərib. Onların böyük zəhmət və alın təri ilə ərsəyə gətirdiyi, Bursada ucaldılan Yaşıl məscid nəqqaşlıq sənətini özündə dolğunluğu ilə əks etdirir. Şah İsmayıl Xətainin dövründə Təbriz nəqqaşlıq məktəbində görkəmli sənətkarlar yetişib. Tanınmış rəssam Kəmaləddin Behzad Heratdan Təbrizə gəldikdən sonra bu məktəbə rəhbərlik edib. O, həmin dövrdə böyük Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin əlyazmaları üzərində işləyib.

XVIII əsrdə Azərbaycanın tanınmış memar və nəqqaşlarından biri Abbasqulu ağa olub. O, Şəki Xan sarayının tərtibatında yaxından iştirak edib. Sarayda böyük salonun tavanında mürəkkəb kompozisiyalar yaradıb və bəzək işləri görüb. Öz adını orijinal şəkildə – sağdan-sola deyil, əks-istiqamətdə həkk etməsi böyük marağa səbəb olub.

Ölkəmizdə nəqqaşlıq sənəti XIX əsrdə geniş inkişaf edib. Bu dövrdə sənətin mexaniki üsulla işlənməsi metodundan daha çox istifadə olunub. Şamaxıda Mirzə Cəfər, Şuşada Qurban Qarabaği, Ordubadda Usta Zeynal Nəqqaş və başqaları bu dövrün məşhur ustaları kimi el arasında tanınıblar.

Xalq arasında "Qızıl əlli nəqqaş" adı ilə məşhur olan usta Zeynal Nəqqaş dövrünün tanınmış xəttat, nəqqaş və şairlərindən olub. Bakıda Hacı Zeynalabdin Tağıyevin evmuzeyinə, Naxçıvan şəhərindəki Xan sarayına, Ordubaddakı Cümə məscidinə, Əylis, Vənənd kəndlərindəki bəzi evlərə çəkdiyi rəsmlər və vurduğu naxışlar bu gün də diqqətləri cəlb edir. Usta Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığındakı dağa bitişik "Qara pir"də möhtəşəm naxış elementləri yaradıb. Eyni zamanda XIX əsrin axırlarında Cümə məscidinin arxa tərəfinə yumurta sarısı, əhəng və başqa materialların qarışığından hazırladığı məhlul vasitəsilə "Şiri-xurşid" gerbini məharətlə əks etdirib. Həmçinin məscidin divarına öz şeirindən beytlər də həkk edib. Görkəmli yazıçı Məmməd Səid Ordubadinin məşhur "Tərcümeyihalım" əlyazmasında Usta Zeynal Nəqqaş haqqında dəyərli fikirlər ifadə olunub.

Müasir dövrdə bu sənət sahəsindən, əsasən, kitab, dəzgah və elmi-tədqiqat qrafikalarında istifadə edilir. Hazırda nəqqaşlığın sənaye üsulu daha çox yayılıb. Belə ki, açıqçalar, dəvətnamələr, sənaye məhsulları, paltar etiketləri və başqa materialların hazırlanmasında nəqqaşlıq elementləri öz əksini tapır. Bundan başqa, zərgərlik məmulatlarında da nəqqaşlıq geniş tətbiq edilir.

Bəs bu gün Naxçıvanda sırf nəqqaşlıqla məşğul olan varmı? Bu suala cavab tapmaq üçün, necə deyərlər, çox qapı döyməli olduq. Ancaq təəssüflə qeyd etməliyik ki, nəqqaş tapa bilmədik. Ağacoyma sənəti ilə məşğul olan tanınmış sənətkar Akif Həsənov dedi ki, əvvəllər bu sənət növü geniş yayılsa da, bu gün nəqqaş çətin tapılar. Bir çox sənət sahələri ilə yanaşı, ağacoyma sənətində də nəqqaşlığın izləri aşkar sezilir. Ağacoyma sənətini dərindən öyrəndikdə görürsən ki, əldə yonulan ağacın hər bir hissəsində bir-birinə bənzəməyən min cür naxış var.

Müsahibim onu da bildirdi ki, Naxçıvan şəhərinin seyrinə çıxdıqda bu sənət növü gözlər önündə canlanır. Belə ki, möhtəşəm Möminə xatın, Yusif Küseyir oğlu türbələri, "Xan sarayı" Tarix-Memarlıq Muzeyi və başqa memarlıq abidələrinə, yeni tikilən və ya yenidən qurulan ictimai yaşayış və inzibati binalara tamaşa etdikcə bəzi nəqqaşlıq elementlərinin şahidi olursan. Eləcə də nəqqaşlıq sənətinin incəlikləri xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və digər sənət növlərinin tərkibində də yaşayır. Lakin nəqqaşlıq adıçəkilən sənət növlərinin tərkibində gözlərimizi oxşasa da, bu, qədim nəqqaşlıq sənətini dolğun ifadə etmir.

Bəli, Naxçıvanda tikilən, ərsəyə gətirilən yeni binalarda bu qədim sənət növü əks olunur. Bu da onu deməyə əsas verir ki, bu gün dövlətimiz qədim sənət növlərimizin yaşadılmasına xüsusi diqqət yetirir. Unutmayaq ki, xalqımızın milli və mənəvi dəyərlərini əks etdirən abidələrimizdə, maddi-mədəniyyət nümunələrimizdə yaşayan bütün sənət növlərini, eləcə də nəqqaşlığı yaşatmaq hər birimizin mənəvi borcudur.

✍ **Nail ƏSGƏROV**

***Yadımdadır, uşaq vaxtı uzun qış gecələrində nənəm qabdolusu heyvanı süfrəyə qoyar, başlayardı onu kəsib dilimləməyə. Bacımla mən isə onun başının üstünü kəsər, heyvanın tumlarını çıxarıb dilimlərini bizə verməyini səbirsizliklə gözləyərdik. Nənəm verdikcə onları ovcumuza yığar, iştahla yeyərdik. Onu da deyim ki, meyvənin özündən daha çox sevərdik onun tumlarını. Çünki həm özünün, həm də tumlarının insan orqanizmi üçün faydalarını da nənəm başa düşdüyümüz tərzdə bizə deyərdi. Bu faydalar nədən ibarətdir?***

Yurdumuzun nemətləri

# Təbiətin insanlara hədiyyəsi *heyva*



Əvvəlcə onu qeyd edək ki, qədim xalq təbabətində heyvadan müxtəlif xəstəliklərin müalicəsində istifadə edilib. Onun özü, qabığı, tumları, hətta yarpağı və çiçəyi ayrı-ayrılıqda min bir dərdə şəfadır. Bir sözlə, kalorisi az olan meyvənin faydaları saymaqla bitmir. Mövzu ilə bağlı kiçik bir araşdırma apardıq.

Havaların soyuması ilə əlaqədar qeyri-ixtiyari soyuqdəyməyə yaxalanırıq. Bu xəstəlikdən qurtarmaq üçün dərman preparatları ilə yanaşı, çoxumuz təbii vasitələrdən də istifadə edirik. Onlardan biri də heyvadır. Bu meyvənin unikal antivirus xüsusiyyətləri olduğu üçün ondan qrip və soyuqdəymənin müalicəsi zamanı geniş istifadə edirlər. Belə hallarda o, az miqdar suda bişirilir və qəbul olunur. Heyva şirəsi iltihab əleyhinə və bəlğəmgətirici təsirə malik olduğuna görə bronxit, bronxial-astma, müxtəlif soyuqdəymələr və iltihablar zamanı istifadə oluna bilər.

Heyva pektinlər, dəmir, kalium, kalsium, mis, fosfor, orqanik turşular, müxtəlif vitaminlərlə, beta-karotinlə zəngindir. Ondan skleroz, pankreatit, hipertoniya, anemiya və sair xəstəliklər zamanı da müalicə məqsədilə istifadə etmək olar.

Bəli, heyva antioksidant maddələrlə zəngindir ki, bu faydalı xüsusiyyət onu stress, depressiya zamanı, həmçinin xərçəng hüceyrələrinin əmələ gəlməsi ilə mübarizədə yaxşı təsir göstərir. O, dəmir mikroelementi ilə olduqca zəngindir. Uşaqlara heyva şirəsi və kompotları vermək məsləhət görülür.

Heyva tumunun bronxitə, mədə və bağırsaq problemlərinə müsbət təsiri danılmazdır. Onun tumu ciyərlər üçün də olduqca faydalıdır. Heyva yarpağı və çiçəkləri soyuqdəymədə və mikrob əleyhinə mübarizədə istifadə edilə bilər. Xalq təbabətindən də məlum olduğu kimi, heyva tumunu alma çəyirdəyi və bal ilə birlikdə qarışdırıb məcun halında qəbul etsəniz və ya su ilə qaynadıb içsəniz, öskürəyi kəsər. Yarpaqlarından hazırlanan çay ürək ağrılarına yaxşı təsir edir və insanı sakitləşdirir. Həmçinin yarpaqlarını qaynadıb, suyu ilə qarqara etmək, yarpaqlarını isə boğaza kompres kimi qoymaq boğaz ağrısının və şişməsinin keçməsinə kömək edir.

Heyva çiçəyini qaynadıb içmək ana südünü artırır, ürəyi möhkəmləndirir. Bu dəmləmə baş ağrısına da faydalıdır. Heyva, eyni zamanda dietik məhsuldur. Arıqlamaq məqsədilə tutulan pəhrizlər zamanı bu meyvədən istifadə effektiv təsir göstərir.

Heyva qədim zamanlardan kosmetik vasitə kimi də qiymətli meyvə hesab edilib. Belə hesab edilir ki, heyva qadının cavanlığını və gözəlliyini qoruyur. Kosmetologiyada heyva şirəsi yağlı dərinin təmizlənməsi üçün və çillərlə mübarizədə istifadə olunur. Heyvanın təzə şirəsi ilə gündə bir neçə dəfə dərinizi silin. Bu sadə üsul dərinin yağlılığını azaldır, onu təmizləyir və daha hamar və parlaq edir.

Bir çoxları heyvanı mövsümündə alıb saxlayır, qışboyu istifadə edir. İnsanlar tərəfindən sevilən bu meyvənin yetişdirilməsi ilə xüsusi olaraq məşğul olanlar var. Şərur rayonunun Arpaçay kənd sakini Abdulla Hacıgözəlovun Çərçiboğan kəndi ərazisində 2500-ə yaxın heyva ağacı var. Ağacların nə qədər məhsul verməsinə gəldikdə isə bu, hər il dəyişir. Ötən il də demək olar ki, bağın məhsulu bol olub. Artıq 5 ildir ki, bu təsərrüfatla məşğul olan zəhmətkeş Abdulla əmi deyir ki, insanlar paytaxt Bakıya, yaxud da ölkəmizin hüdudlarından kənara belə, bu bağın meyvəsindən qohum-əqrəbalarına sovqat aparmaq üçün alırlar. İnsanlar faydalarından xəbərdar olduqları üçün bu meyvəni sevərək yeyirlər.

✍ **Fatma BABAYEVA**

# İşəgötürənlərin nəzərinə!

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanunu 2018-ci il yanvarın 1-dən qüvvəyə minir. Həmin Qanunun 6-cı maddəsində digər vəzifələrlə yanaşı, işçilərini işsizlikdən sığorta etdirmək, əməkhaqqı fondundan və sığortaolunanın əməkhaqqından bu qanunla müəyyən edilmiş tariflər əsasında sığortahaqqını sığortaçıya ödəmək, sığortahaqqının hesablanmasının və köçürülməsinin uçotunu düzgün aparmaq və bu barədə sığortaçıya hesabat təqdim etmək sığortaedənin vəzifələrinə aid edilmişdir."İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 30 dekabr tarixli Fərmanına əsasən işsizlikdən sığorta haqlarının daxilolmasına nəzarət və büdcənin gəlirlərinin yerinə yetirilməsi üçün müvafiq tədbirlərin görülməsi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna tapşırılmışdır.

Göstərilənləri nəzərə alaraq aşağıdakılar diqqətə çatdırılır:

– Məcburi dövlət sosial sığortası məqsədləri üçün "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondunda (bundan sonra Fond) uçota alınmış sığortaedənlər işsizlikdən sığorta məqsədləri üçün Fondda qeydiyyata alınmış hesab edilirlər.

– Sığortaedənin məcburi dövlət sosial sığortası məqsədləri üçün Fond tərəfindən verilmiş uçot nömrəsi (SUN) eyni zamanda onun işsizlikdən sığorta məqsədləri üçün Fondda qeydiyyat nömrəsi hesab edilir.

– Məcburi dövlət sosial sığortası üzrə dövlət sosial sığorta sistemində fərdi uçotu aparılan sığortaolunanlar (yalnız əmək müqaviləsi ilə işləyənlər) işsizlikdən sığorta üzrə Fondda qeydiyyata alınmış hesab olunurlar.

– Sığortaedənlər tərəfindən hesablanıb Fonda ödənilən işsizlikdən sığorta haqları barədə məlumatlar sığortaolunanların fərdi şəxsi hesablarında nəzərə alınmır.

– İşsizlikdən sığortahaqqı, hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi və işçinin əməkhaqqının 0,5 faizi miqdarında sığortaedən tərəfindən ödənilir.

– "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunu ilə işsizlikdən sığortahaqqının hesablanmasından azadolma müəyyən edilməmişdir.

– Hər ay üçün hesablanmış işsizlikdən sığortahaqqı sığortaedən tərəfindən əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə Fonda ödənilir.

– Sığortaedənlər hər rüb üçün "İşsizlikdən sığorta üzrə rüblük hesabat"ı həmin rübdən sonra gələn birinci ayın 20-dən gec olmayaraq və hər rüb üçün ayrı-ayrılıqda Fonda məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatla birgə təqdim edirlər. Aprelin, iyulun, oktyabrın və yanvarın 20-si iş günü olmayan dövrə təsadüf edərsə, hesabatın təqdim olunması müddəti ayın 20-dən sonra gələn birinci iş gününə qədər artırılır.

– İşçilərin işsizlikdən sığorta etdirilməməsinə, sığortahaqqının hesablanmasının və köçürülməsinin uçotunun düzgün aparılmamasına və bu barədə sığortaçıya hesabatın təqdim edilməməsinə, sığortahaqqının vaxtında köçürülməməsinə görə inzibati qaydada məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 25